

# Ermənistanın dinc əhaliyə qarşı törətdikləri beynəlxalq terror aktı, hərbi cinayətdir

**Zahid Rza**

Qorxaq, cəsarətsiz, alçaq, murdar, döyüş meydanındakı məğlubiyyətləri ilə barışa bilməyən ermənilər öz uğursuzluqlarını kompensasiya etmək üçün hər cür alçaq, şərəfsiz əməllərə əl atırlar.

27 sentyabrda Azərbaycana qarşı cəbhə boyunca başlatdığı təxribata cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumu nəticəsində ağır məğlubiyyətə uğrayan işğalçı Ermənistanın həyasız, əxlaqsız, cinayətkar baş naziri Nikol Paşinyan telefonlara sarılaraq kömək üçün yalvarmadığı ölkə başçısı qalmadı. İş o yerə çatdı ki, “dabanını yaladığı” Putinə 5 dəfə telefon zəngi etdi. Nəticədə oktyabrın 9-da Rusiyanın XİN rəhbəri Sergey Lavrovun iştirakı ilə Moskvada Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Zohrab Mnatsakanyan arasında keçirilən 10 saatlıq görüşün yekununda Dağlıq Qarabağ münaqişə zonasında humanitar məqsədlərlə atəşin dayandırılması barədə razılıq əldə olundu.

Satellit, ipi onun-bunun əlində olan, insanlığın üz qarasına çevrilmiş Ermənistan sülh yalvarışları etsə də, alçaqcasına mülki şəxslərə qarşı terror aktları törətməkdə davam edir. Belə ki, Moskva razılaşmasından bir neçə saat sonra Ermənistanın silahlı qüvvələri Hitlerin xələfi olan Nikol Paşinyanın göstərişi ilə gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan, döyüşlərin getdiyi ərazilərdən uzaqda yerləşən Gəncəyə, eləcə də respublikamızın sənaye mərkəzlərindən biri olan Mingəçevirə, Tərtərə, Ağcabədiyə, Bərdəyə, Füzuliyə, Ağdama və digər ərazilərə raket zərbəsi endirdilər. Gəncə şəhərində raket atəşi nəticəsində 9 nəfər (4-ü qadın) həlak oldu, 34 nəfər yaralandı, çoxsaylı mülki obyektlərə ciddi ziyan vuruldu. Bütövlükdə humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan təcavüzkar ölkə tərəfindən bir sıra rayonlarımıza 600-dən çox mərmi atıldı. Ümumiyyətlə, 27 sentyabr 2020-ci il tarixindən 12 oktyabr 2020-ci il tarixinədək Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı hücumları ilə bağlı yeni məlumat yayıb. Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində 41 mülki şəxs qətlə yetirilib, 207 nəfər isə yaralanıb, 146 mülki obyekt, 57 çoxmənzilli yaşayış binası, 1885 yaşayış evi yararsız vəziyyətə düşüb.

Onlarla dinc sakinin ölümünə, yüzlərlə mülki şəxsin yaralanmasına səbəb olan Ermənistan silahlı qüvvələrinin törətdikləri əməllər işğalçı ölkənin hərbi-siyasi rəhbərliyi tərəfindən planlaşdırılmış beynəlxalq terror aktı, hərbi cinayətdir. Nədənsə nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT baş verənlərə reaksiya vermədi.

Görəsən, iqtisadi-siyasi böhran məngənəsində sıxılan, demoqrafik vəziyyəti təhlükəli həddə çatan, koronavirus pandemiyasına qarşı mübarizədə çıxılmaz vəziyyətə düşən, ondan-bundan asılı olan, cəmi 2 milyona yaxın əhalisi olan satellit Ermənistan Cənubi Qafqazın ən güclü ordusuna və iqtisadiyyatına sahib olan, 10 milyon əhalisi olan Azərbaycana qarşı bu cəsarəti haradan alır? Axı bütün dünya bilir ki, Ermənistan dövlət deyil, simasız, noxtalı, ondan-bundan asılı, parazit oyuncaq-zaddır.

Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibəsində deyib ki, axı, gizli deyil ki, bu gün Ermənistan Rusiyadan 100 faiz asılı vəziyyətdədir. Onun təhlükəsizliyi Rusiya tərəfindən təmin edilir, pulsuz silahlanması Rusiya tərəfindən təmin edilir: “Biz Ermənistana məxsus, bəlkə də milyardlarla dollar dəyərində texnikanı iki həftə ərzində məhv etdik. Onlarda bu pullar haradandır? Onların pulu yoxdur. Bütün bunlar Rusiyadan pulsuz göndərilir. Qaz təchizatı Rusiyadan güzəştli qiymətlərlə təmin olunur, elektrik enerjisi də müəyyən dərəcədə güzəştlə verilir. Dəmir yolları, rabitə, hərbi baza. Hətta Ermənistanın Türkiyə və İranla sərhədini rusiyalı sərhədçilər qoruyur. Əgər belə olmasaydı, sərhəd boş qalardı. Ermənistana təsir göstərmək üçün daha hansı ölkənin bu qədər vasitələri var? Heç bir ölkənin. Bəlkə də dünyada başqa elə iki ölkə yoxdur ki, onlardan biri digərindən bu qədər tam asılı olsun. Buna görə əminəm ki, Rusiya tərəfindən təkid göstərilsə, bizim status-kvonu dəyişməyimiz, təmas xəttini yarıb keçməyimiz nəticəsində İrəvanın ayılması nəzərə alınmaqla Rusiya qısa müddətdə Ermənistanı inandıra bilər: təkcə hərbi qarşıdurma baxımından deyil, bütövlükdə Ermənistanın gələcəyi üçün indiki vəziyyətdən yeganə çıxış yolu Azərbaycanla münaqişənin həllini tapmaqdır. Bu həll isə çox sadədir - onlar bizim ərazidən getməli, öz qoşunlarını çıxarmalı, bizim insanlar oraya qayıtmalı və biz yenidən yanaşı yaşamağa çalışmalıyıq”.

Havadarlarından yüz faiz asılı olan, şeytani oyunların icraçısına çevrilən Ermənistan bilməlidir ki, Qarabağ işğaldan azad edilməyincə, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmayana qədər bu münaqişə bitməyəcək. Bu gün Azərbaycanda 7-dən 77-yə hamı öz Ali Baş Komandanının, dövlət başçısının, Azərbaycan Ordusunun yanındadır. Ölkəmizdə güclü xalq-iqtidar, xalq-ordu birliyi, həmrəyliyi var. Xalqımız düşmənə qalib gəlmək əzmindədir. Yüksək vətənpərvərlik əhval-ruhiyyəsində olan gənclərimiz şəhidlərini dəfn edərək düşməndən intiqam alacaqlarına and içərək, “Vətən, sənə canım fəda olsun!” deyirlər.

Ermənistan gec-tez Azərbaycanın qarşısında diz çökəcək. Xalqımıza qarşı törətdiyi bəşəri cinayətlərə görə cavab verəcək.

Bu barədə Prezident İlham Əliyev özünün “Twitter” hesabında yazıb: “Ermənistanın hərbi siyasi rəhbərliyi törətdiyi cinayətlərə görə məsuliyyət daşıyır. Azərbaycan tərəfi bütün bunlara layiqli cavab verəcək! Həmin raket hücumu Ermənistanın Vardenis rayonundan həyata keçirilib. Nəticədə Azərbaycanın 41 mülki şəxsi həlak olub, 200 nəfərdən çoxu isə yaralanıb. Ermənistan tərəfinin məqsədi işğaldan azad edilmiş əraziləri yenidən işğal etməkdir. Ermənistanın Gəncəyə raket hücumu Rusiyanın vasitəçiliyi ilə aparılmış danışıqlara hörmətsizlik və erməni faşizminin növbəti təzahürüdür.”

Ali Baş Komandanımız, həmçinin qeyd edib ki, bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!